***Həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev şəhid ailələrinin, ölkəmizin azadlığı və ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə əlil olmuş şəxslərin, eləcə də, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini daim diqqət mərkəzində saxlayıblar. İkinci Qarabağ müharibəsindən sonra isə bu həssas məsələyə daha böyük diqqət ayrılır.***

***Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir… Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək, Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa-dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Yevlaxda şəhid ailələrinin və qazilərin problemləri diqqət mərkəzindədir

Dövlət başçımız Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edərkən həmin məsələləri bir daha yada saldı və xatırlatdı ki, başda Prezident olmaqla. hər bir insan şəhid ailələrinin və qazilərin probleminə diqqətlə yanaşmalı, onların gündəlik həyatda qarşılaşdıqları istənilən məsələ dərhal həll edilməlidir: “Dövlət tərəfindən bu diqqət daim göstərilir… Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək”.

Xatırladaq ki, Prezident İlham Əliyev ölkə rəhbərliyində olduğu dövrdə bu məsələləri daim diqqət mərkəzində saxlamış və öz tövsiyələrini vermişdir.

Məmnunluqla yazıram ki, dövlət başçımızın rayon və şəhər rəhbərlərinə ünvanlanan həmin tövsiyələri digər rayonlarımızda olduğu kimi, Yevlax şəhər rəhbərliyinin də iş qrafikindəki gündəlik və ən mühüm bəndlərdən biri olaraq qalır. Bölgə müxbiri kimi fəaliyyət göstərdiyim Yevlaxda Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailələrinin sosial müdafiəsinin təmin edilməsi, həmçinin onları narahat edən problemlərin həlli üçün atılan addımların, həyata keçirilən tədbirlərin sayını qələmə almaq o qədər də asan deyil. Amma həmin zümrələrin problemlərinin öyrənilməsi üçün keçirilən görüşlərin sayını bilirik. Bu günə qədər bu qəbildən olan 1130 görüş keçirilib.

Əslində, bu sətirləri qələmə almağımın əsas səbəbi rayonun Aran qəsəbəsindən olan Vətən müharibəsi şəhidi Elgün Kərimovun atası Rauf Kərimovdan eşitdiklərim oldu. Şəhid atası qeyd etdi ki, şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyev məni qəbul edərkən nəinki dilə gətirdiyim problemin həll edilməsi üçün göstəriş verdi, eləcə də, şəhid ailələri, qazilər və əlillər haqqında elə ehtiramla danışdı, elə dəyərli fikirlər səsləndirdi ki, mən indiyədək onun qəbuluna gəlmədiyimə görə özümü qınadım: “Şəhər rəhbəri qəbulda müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın Ordusunun qazandığı şanlı Qələbədən, torpaqlarımızın işğaldan azad olunmasından, ölkə rəhbərinin şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət və qayğıdan danışdıqca, mənim oğlum öz gözümdə daha da ucaldı. Başçı şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə cansağlığı arzulayanda isə hiss etdim ki, şəhid itkisinin kədərini biz valideynlər təkbaşına yaşamırıq.

…Şəhər icra hakimiyyəti aparatının müvafiq şöbəsindən aldığımız məlumatda göstərilən fakt və rəqəmləri saymaqla qurtaran deyil. Ancaq həmin faktların bəzilərini qeyd etməmək də mümkün deyil. Bildirilir ki, bu kateqoriyadan olan şəxslərin problemlərinin həlli istiqamətində rayonun və respublikanın ayrı-ayrı qurumlarına rəsmi olaraq 193 müraciət edilib. İcra hakimiyyəti tərəfindən 49 şəhid ailəsi və 32 Vətən müharibəsi əlili mənzil növbəsinə alınıb, 3 şəhid ailəsi Bakı şəhərində mənzillə təmin olunub. 2 şəhid ailəsi üçün fərdi evin tikintisinə başlanılıb. Bu kateqoriyadan olan şəxslərin müraciətlərinə əsasən, onların mənzil növbəsinə götürülməsi davam etdirilir.

Onu da vurğulayım ki, yevlaxlı şəhid ailəsi və qazilərin problemlərini təkcə şəhər icra hakimiyyəti həll etmir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3 nəfər Vətən müharibəsi əlili minik avtomobili ilə təmin olunub. Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən Vətən müharibəsi əlili Rəmzi İsmayılova fərdi ev tikilib.

Milli Qəhrəman Malik Əsədovun qızının evi isə şəhər icra hakimiyyəti tərəfindən əsaslı şəkildə təmir olunub,Vətən müharibəsi qazisi Yusif Ağaməmmədovun istəyinə əsasən, yaşadığı evdə əlavə tikili və lazımi avadanlıqlar da şəhər rəhbərliyi tərəfindən quraşdırılıb. Eləcə də, 2 şəhid ailəsi və 1 qazi tikinti materialları ilə təmin edilib.

Bəzən kiçik və ya əhəmiyyətsiz kimi görünə biləcək digər məsələlər də var ki, onların həlli həmin zümrələrdən olan şəxslərin məmnunluğu ilə qarşılanır. Məsələn, şəhər icra hakimiyyəti tərəfindən qazilərin bir neçəsi dərman vasitələri və reabilitasiya vasitələri ilə təmin olunub. Məhz icra hakimiyyətinin təşəbbüsü ilə müxtəlif qurumlar, iş adamları, sahibkarlar və adi vətəndaşlar tərəfindən şəhid və qazi ailələrinə, ümumilikdə, 49 min 900 manat dəyərində ərzaq və maddi yardımlar edilib. Bu cür yardımların bundan sonra da davam etdirilməsi nəzərdə tutulur.

Xüsusilə qeyd edilməli məqamlardan biri də odur ki, Heydər Əliyev Fondu tərəfindən hər bir şəhid ailəsinə 10 min manat məbləğində, ümumilikdə, 650 min manat miqdarında maddi yardım edilib.“YAŞAT” Fondu tərəfindən isə 61 Vətən müharibəsi şəhid ailəsinin üzvlərinə 407 min 246 manat, 54 Vətən müharibəsi qazisinə isə 542 min 692 manat, ümumilikdə 949 min 939 manat məbləğində müxtəlif istiqamətlər üzrə yardımlar olunub.

Bunlar da şəhid ailəsi və qazilərə göstərilən qayğı və diqqətin hamısı deyil. Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti tərəfindən hər bir şəhid ailəsinə 3000 manat məbləğində, ümumilikdə, 195 min manat məbləğində dəfn xərcləri ödənilib. Dövlət Sığorta Kommersiya Şirkəti tərəfindən hər bir şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik sığorta ödənişi, ümumilikdə 715 min manat vəsait verilib.

Bundan əlavə, hərbi əməliyyatlar zamanı yaralanan hər bir hərbi qulluqçuya xəsarətin ağırlıq dərəcəsinə uyğun olaraq, 550 manatdan 2750 manata qədər birdəfəlik sığorta ödənişləri edilib.

Əlillik dərəcəsi təyin olunan 43 hərbi qulluqçudan 1 nəfərinə 1-ci qrup üzrə 8800 manat, 17 nəfərinə 2-ci qrup üzrə 6600 manat, 25 nəfərinə isə 3-cü qrup üzrə 4400 manat məbləğində birdəfəlik sığorta ödənişi edilib. Ümumilikdə, bu günə qədər Yevlax rayonunda müxtəlif idarə, müəssisə, təşkilatlar tərəfindən 51 nəfər Vətən müharibəsi şəhidinin ailə üzvləri, qazi və iştirakçı işlə təmin olunub. Bələdiyyələr tərəfindən 54 nəfər Vətən müharibəsi şəhidlərinin ailə üzvləri , qazi və iştirakçı 114,526 hektar müxtəlif təyinatlı torpaq sahələri ilə təmin olunmuşdur.

Dövlət Məşğulluq Agentliyinin Yevlax filialı tərəfindən 42 Vətən müharibəsi şəhid ailəsinin üzvü, 34 nəfər isə Vətən müharibəsi qazisi bu kateqoriyadan olan 76 ailə müxtəlif istiqamətlər üzrə özünüməşğulluq proqramına qoşularaq aktivlərlə təmin olunub.

Şəhər icra hakimiyyəti və rayonun fəalları tərəfindən Vətən müharibəsi şəhidlərinin məzarlarının hazırlanmasna, şəhidlərin yas və il mərasimlərinə, əlamətdar günlərdə şəhid və qazi ailələrinə ərzaq yardımlarının edilməsinə, Ramazan bayramı ilə əlaqədar iftar süfrəsinin təşkilinə, şəhid və qazi övladlarının məktəbli formaları, məktəb çantaları və ləvazimatları ilə təmin olunmasına, Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı şəhid övladlarına hədiyyələrin verilməsinə, Milli Qəhrəman Malik Əsədovun qızının evinin əsaslı təmirinə,Vətən müharibəsi qazisi Yusif Ağaməmmədovun yaşadığı evdə əlavə tikili və lazımi avadanlıqlar quraşdırılmasına,Yevlax şəhərində Şəhidlər xiyabanının əsaslı təmir olunmasına, şəhid abidələrinin, bulaqlarının tikilməsinə, barelyeflərinin hazırlanmasına , ümumilikdə, 513 min 302 manat vəsait xərclənib.

Yevlax şəhidlərinin adlarının əbədiləşdirilməsi məqsədi ilə Şəhər İcra Hakimiyyəti tərəfindən “Zəfər fədailəri – Yevlax Şəhidləri” və “Biz Vətən Üçün Doğulduq” adlı kitablar çap olunaraq geniş oxucu kütləsinə təqdim olunub. Eləcə də, Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Yevlax rayonu üzrə 7 şəhid ordenlə təltif olunub.

Şəhər icra hakimiyyəti başçısının sərəncamları ilə şəhid Rəşad Budaqovun, şəhid Yusif Yusifbəylinin, Ceyhun Əyyubovun və Əsgər İsmayılzadənin adları küçələrə veriliib və həmin küçələrə onların adları olan lövhələr vurulub. Bundan başqa, şəhid polkovnik-leytenant Soltan Məmmədovun adının Səmədabad, şəhid kapitan Kamran Qaraməmmədli, şəhid mayor Toğrul Bərxudarovun adının Yuxarı Qarxun kənd tam orta məktəblərinə verilməsi haqqında qaydalara uyğun müvafiq işlər görülüb. Eləcə də, şəhər icra hakimiyyəti tərəfindən 24 şəhidin barelyefləri hazırlanaraq yaşadıqları evlərin fasadına vurulub.

Rayon ərazisində I Qarabağ və Vətən müharibəsi şəhidlərinin xatirəsinə 24 Şəhid bulağı və 11 Şəhidlər abidəsi tikilib. Bu işlər davam etdirilir.

Yevlax şəhərindəki Şəhidlər xiyabanı əsaslı şəkildə təmir olunub. Xiyabanda “Vətən öz şəhidləri ilə ucalır” adlı Şəhidlər adibəsi uçaldılıb. Şəhidlər xiyabanındakı qəbir daşları dəyişdirilərək I və II Qarabağ müharibəsinin şəhidlərinin məzarları eyni formada hazırlanıb, içməli və texniki su xətləri çəkilib, işıqlandırma sistemi qurulub, oturacaqlar quraşdırılıb, tamet döşənib, bardürlər düzülüb və şəhidlərin adına ağaclar əkilib.





… İyulun 22-də rayonun Səmədabad kəndində dövlətimizin müstəqilliyi, ərazi bütövlüyümüz uğrunda canlarını qurban verən Birinci Qarabağ və Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ucaldılan abidənin açılışında mən də iştirak edirdim. Orada eşitdim ki, Yevlax rayonundan müharibədə 1000-ə yaxın Vətən övladı iştirak edib, onlardan 65 nəfəri canını torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda döyüşlərdə fəda edərək şəhidlik zirvəsinə ucalıb.

Bir neçə orden və medallarla təltif olunmuş şəhid polkovnik – leytenant Soltan Məmmədovun həyat yoldaşı Tünzalə Məmmədova həmin tədbirdəki çıxışında dedi ki, Soltan şəhid olacağını bilirdi və bilərəkdən ölümün üstünə getdi ki, böyük bir xalqın üstündən “məğlub” sözünün götürülməsinə xidmət etsin. Mən fəxr edirəm ki, millətimizə qalib xalq adını qazandıranlar arasında Soltan Məmmədov da var...

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***